# AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ

## İCTİMAİ BİRLİKLƏR VƏ DİNİ QURUMLAR KOMİTƏSİ

AZ1152, Bakı, Parlament prospekti, 1 www.meclis.gov.az

№ 1-6/07/11/2-83/2026 7 aprel 2026-cı il

**Azərbaycan Auditorlar Palatasının sədri**
**cənab Vahid NOVRUZOVA**

**Hörmətli Vahid müəllim,**

Sizi və rəhbərlik etdiyiniz Azərbaycan Auditorlar Palatasının kollektivini Palatanın 30 illik yubileyi münasibətilə təbrik edirəm!

Azərbaycan Auditorlar Palatası ötən üç onillik boyu ölkəmizdə müstəqil audit institutunun formalaşması, maliyyə intizamlı, şəffaf iqtisadi mühitin təşəkkülü yönündə önəmli və sistemli fəaliyyət həyata keçirmiş, dövlət orqanları ilə cəmiyyət arasında güvən körpüsünün möhkəmlənməsinə sanballı töhfələr vermişdir.

Sizin uzunillik, səmərəli fəaliyyətiniz, iqtisad elminin inkişafına verdiyiniz dəyərli töhfələr, auditor xidmətinin institusional əsaslarının qurulması və inkişafındakı rolunuz təqdirəlayiqdir. Rəhbərliyiniz dönəmində Palatanın qazandığı uğurlar Sizin peşəkarlığınızın, zəhmətinizin, prinsipial mövqeyinizin və milli maraqlara sədaqətinizin təcəssümüdür.

Çağdaş dönəmdə vətəndaş cəmiyyətinin inkişafı yalnız ictimai fəallıqla deyil, eyni zamanda şəffaflıq, hesabatlılıq və hüquqi-mənəvi məsuliyyət prinsiplərinin möhkəmləndirilməsi ilə bilavasitə bağlıdır. Bu baxımdan, Auditorlar Palatasının fəaliyyəti iqtisadi nizam-intizamla yanaşı, ictimai güvənin, etik davranış standartlarının və milli-mənəvi dəyərlərin qorunmasına xidmət edən bir missiya daşıyır.

Əminəm ki, rəhbərlik etdiyiniz qurum bundan sonra da ölkəmizdə iqtisadi idarəetmənin təkmilləşdirilməsi, audit mədəniyyətinin dərinləşdirilməsi və vətəndaş cəmiyyətinin institusional inkişafı yönündə öz töhfələrini uğurla davam etdirəcəkdir.

Sizə, Auditorlar Palatasının kollektivinə möhkəm cansağlığı, yeni uğurlar diləyirəm!

*Hörmətlə,*

***Komitə sədri:*** **Fazil MUSTAFA**